***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR-IN-CHIEF***

***ÜZEYİR HACIBƏYLİ – 140***
***УЗЕИР ГАДЖИБЕКЛИ – 140***
***UZEYIR HAJIBAYLI – 140***

*UOT 37.1*

***Akif Nurağa oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*E-mail: a.abbasov@arti.edu.az*
*https://orcid.org/ 0000-0002-9210-7141*
https://doi.org/10.69682/arti.2025.92(1).7-10

# ÜZEYİR HACIBƏYLİ YARADICILIĞI MÜSBƏT MƏNƏVİ KEYFİYYƏTLƏRİ İNKİŞAF ETDİRMƏYİN VASİTƏSİ KİMİ

***Акиф Нурага оглу Аббасов***
*ученый секретарь Института Образования Азербайджанской Республики,*
*доктор педагогических наук, профессор, заслуженный учитель*

# ТВОРЧЕСТВО УЗЕИРА ГАДЖИБЕЙЛИ КАК СРЕДСТВО РАЗВИТИЯ ПОЛОЖИТЕЛЬНЫХ НРАВСТВЕННЫХ КАЧЕСТВ

***Akif Nuragha Abbasov***
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of pedagogical sciences, professor, Honored teacher*

# UZEYIR HAJIBAYLI'S CREATIVITY AS A MEANS OF DEVELOPING POSITIV MORAL QUALITIES



**Xülasə.** Üzeyir Hacıbəyli yaradıcılığı son dərəcə zəngindir. Çox müxtəlif elm sahələri (psixologiya, pedaqogika, fəlsəfə, filologiya və s.) üzrə onun yaradıcılığına müraciət etmək olar. Bu məqalədə bəstəkarın yaradıcılığını təhsilalanlarda müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin baxımdan nəzərən keçirməyi qarşımıza məqsəd qoymuşuq.

**Açar sözlər:** *dahi bəstəkar, Üzeyir Hacıbəyli yaradıcılığı, mənəvi keyfiyyətlər, müsbət mənəvi keyfiyyətlər, mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi*

**Аннотация**. Творчество Узеира Гаджибейли необычайно богато. Его работы могут быть применены в самых разных областях науки (психологии, педагогике, философии, филологии и т. Д.). В данной статье мы ставим своей целью рассмотреть творчество композитора с точки зрения формирования положительных нравственных качеств у учащихся и студентов.

***Ключевые слова***: *великий композитор, творчество Узеира Гаджибейли, духовные качества, положительные духовные качества, развитие духовных качеств*

**Abstract.** The work of Uzeyir Hajibayli is unusually rich.. His works can be applied in a wide variety of fields of science (psychology, pedagogy, philosophy, philology, etc.). In this article, we aim to examine the composer's work from the point of view of developing positive moral qualities in pupils and students.

***Key words***: *great composer, creativity of Uzeyir Hajibayli, spiritual qualities, positive spiritual qualities, development of spiritual qualities*

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli Allah-taalanın nəinki Azərbaycan, həmçinin dünya mədəniyyət tarixinə bəxş etdiyi böyük və qiymətli, son dərəcə dəyərli töhfədir. Bu dahi sənətkar Şərqdə, ümumilikdə isə, İslam dünyasında ilk operanın müəllifiydi. Özü də bu operanı 23 yaşında yaratmışdı. Üzeyir Hacıbəyli bəstəkar olmaqdan qabaq təcrübəli, qabaqcıl müəllim idi. 1904-cü ildə Cəbrayıl qəzasında müəllim işləmişdi (1904). Müəllimlik fəaliyyətinə başlayarkən Qori Müəllimlər Seminariyasında təhsil alaraq (1890-1904) müəllimlik peşəsinə yiyələnmişdi. O zamanlar Müslüm Maqomayev də burada təhsil alırdı. Gələcəyin dahi bəstəkarları seminariyada tanış olmuşdular. İlk təhsil illəri isə, Şuşanın ikiillik rus-türk məktəbində keçmişdir.

Üzeyir Hacıbəyli indi ən mötəbər və möhtəşəm məclislərdə əzəmətlə səslənən Azərbaycan Respublikasının dövlət himnini bəstələmişdir. Həmin himn 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə meydana gəlmişdi.

Azərbaycanın görkəmli bəstəkarları Asəf Zeynallı, Səir Rüstəmov, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Niyazi, Cövdət Hacıyev, Şəfiqə Axundova, Cahangir Cahangirov və b. Üzeyir bəyin tələbələri olmuşlar.

Üzeyir Hacıbəyli Ağcabədidə doğulsa da sonralar Şuşada yaşamış, 1905-ci ildən Bakıda əmək fəaliyyətini davam etdirmişdir.

Bəstəkarın fəaliyyəti çoxcəhətlidir. Biz onu müəllim, yazıçı, dramaturq, drijor, jurnalist, fövqəladə istedada malik musiqişünas, publisist, ictimai xadim, alim, dərsliklər müəllifi kimi tanıyırıq. Professor, akademik idi, Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası), respublika Bəstəkarlar İttifaqının sədri, deputat olmuşdu.

Üzeyir Hacıbəyli "Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Harun və Leyla" operalarının; "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" musiqili komediyaların; çoxsaylı felyetonların və hekayələrin müəllifidir.

"Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm" operaları, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları bir əsrdən artıqdır ki, dəfələrlə səhnə həyatı yaşamışdır. "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının motivləri əsasında bədii filmlər çəkilmişdir.

Musiqili komediyaları ilə yanaşı satirik hekayələri də (Bazar söhbəti", Təhsil", Söhbət", "Keçmişdə və indi", "Müəllimə", Dinmə, ver pulu" və s. ) maraqla oxunur.

Ədibin çoxsaylı səhnəcikləri də vardır. Onlardan bəzilərini diqqət mərkəzinə gətirək: "Ordan-burdan", "Qalmaqal", "Ata və oğul", "Yuxuda", "Dumanın halı", Kələıkbazlar", İran işləri" və s.

Üzeyir Hacıbəyli yaradıcılığı son dərəcə zəngindir. Çox müxtəlif elm sahələri (psixologiya, pedaqogika, fəlsəfə, filologiya və s.) üzrə onun yaradıcılığına müraciət etmək olar.

Bu məqalədə bəstəkarın yaradıcılığını təhsilalanlarda müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin baxımdan nəzərən keçirməyi qarşımıza məqsəd qoymuşuq.

Dahi Üzeyir hər bir insanın şəxsiyyət statusu almasından ötrü onun davranışı və rəftarına bir çox mühüm tələblər verirdi. Bütün bunları onun əsərlərindən görmək mümkündür. Üzeyir

bəy yaradıcı insan olmaqla yanaşı bir şəxsiyyət kimi kamil idi. Ən yaxşı mənəvi keyfiyyətləri özündə cəmləşdirmişdi. Məhz nəcib sifətlərə, müsbət mənəvi keyfiyyətlərə, nümunəvi davranış və rəftara yiyələnmiş, şəxsiyyətlərarası münasibətləri düzgün quran insanların başqalarına öyüd-nəsihət verməyə ixtiyarı var. Bu baxımdan Üzeyir bəy nümunə idi. Bir insan, bir tərbiyəçi, bir yaradıcı şəxs kimi.

Üzeyir bəyin əsərlərindən görünür ki, o, vəzifə sahiblərinin, o cümlədən çiynində rütbə gəzdirən şəxslərin insanları incitməsini, onların rüşvətxorluğun pisləyirdi. "Pristav ağa" hekayəsində İran sərbazına simsarlıq edən bir strajnikin özbaşınalığı, rəhmsizliyi tənqid edilir. Hekayədə bu strajnik M... kəndinə gələrək köməksiz bəzi kənd camaatını, ağsaqqalı, qarasaqqal, təqsiri, günahı olmadan, çallağa tutması təsvir olunur. Bu strajnuk əxlaqca, mənəviyyatca nə qədər yoxsul, kasıbdır ki, döyüb təhqir etdiyi həmin ağsaqqalın evində, qonaq üçün hazırladığı yatağında gecələyir, axşam da ailənin xanımının bişirdiyi yeməkdən yeyir. Buna yemək yox, zəhərlənmək deyərlər.

Üzeyir bəy pristavın gəlişini xəbər vermək üçün "cibində siçanlar oynayan" strajnukin kənddən cibi dolu qayıtdığını, kənd əhlini çalıb-çapıb getdiyini aşağıdakı sözlərlə bildirir: "Strajnik kəndə gələndə cibində beş-altı qəpik pulu var idi. Lakin gedəndə bu beş-altı qəpik bir gecənin içində beş-altı manata "istihalə" etmişdi. Bu "möcüzənin" sirri ev sahibi ilə cib sahibinə məlum idi" (1, s. 329).

Pristav nə zaman gələcək, nə üçün gələcək? – sualı kəndliləri çox düşündürür. Lakin bu sula cavab tapa bilmirlər. Fərziyələr irəli sürülür. Cənnətquluya görə, "pristav Əliqulunun oğurluğunu eşidib gəlir"; Əliqulunun fikrincə, "pristav ağa Cənnətqulunun Məmmədcəfərlə savaşdığını eşidib gəlir" (1, s. 329). Çoxunun qənaətincə, "Pristav ağanın işi kəndləri gəzib adam döydürməkdir!" (1, s. 329).

Nəhayət, pristav başının dəstəsi ilə at belində özünü kəndə çatdırır. Məlum olur ki, onun məqsədi camaatın dolanışığı, vəziyyəti ilə maraqlanıb onlara nə isə bir kömək göstərmək, onların dərdinə əlac qılmaq, oğurluq-doğurluq, dava-dalaş səbəbin araşdırmaq deyil. Həmişə olduğu kimi, yuxarıda diqqət mərkəzinə gətirdiyimiz sonuncu variantı ("Pristav ağanın işi kəndləri gəzib adam döydürməkdir!") reallaşdırıb, özünün hökmündən, səlahiyyətlərindən həzz almaqdır. Strajnikin özbaşınalığı bunun yanında heç nə imiş.

Üzeyir bəy bu xüsusda yazır: "Həyatdə sayanı-tamaşa bir drama vaqe olurdu. Pristav başıaçıq və əlləri ciblərində "özünü dartmış turac kimi" qapının ağzında durub, keçmiş padşahlara mənsub bir hökumət ilə cərgə ilə düzülmüş kəndliləri bir-bir və hərəsini bir növ döydürürdü. Birisini libasdan xali edib, lüt əndamına qançı vurdururdu, digərini saqqalından tutdurub, üzünə, başına şillələr çəkdirirdi, bir qeyrisini əlibağlı ora-bura çapdırırdı. Bəzisini yerə yıxıb, təpik altına saldırdı və saitə..." (1, s. 330).

Sual olunur? Bu yazıqların, bu binəvaların günahı nə idi? Şiddətə, təhqirə məruz qalırdı? Səbəb yox idi. Pristav onların gözünü qorxudurdu. İkincisi, bu cəza növləri, günahsız insanların əzab çəkmələri, qışqırıqları onu əyləndirirdi. O, bu zülmə əl atmaqla istirahət edirdi.

Bu hekayə, təbii ki, Azərbaycanda Xalq Cümhuriyyətindən əvvəlki dövrün hadisələrini təsvir edir. Çarizmin hökm sürdüyü illərdə insanların ağır həyatını, məhrumiyyətlərini, çəkdikləri əzab-əziyyəti, bir əlcə çörəyə möhtac olduqları zamanı özündə ehtiva edir.

Üzeyir Hacıbəylinin şah əsəri olan "Koroğlu" operasının librettosu ilə tanış olduq. Librettoda Alı kişi xana sədaqətlə xidmət edən, öz işinin ustası olan, yalan-palan bilməyən bir şəxsdir. Həsən xanın buyruğu ilə ilxıdan İbrahim xan üçün layiqli bir at (Qıratı) seçir. Atın görkəmi İbrahim xana və Həsən xana xoş gəlmir. Alı kişinin:

Mən xana bir xidmət etmək istədim,
Nə qədər cins at var seçdim, saxladım,

– sözlərinə məhəl qoymurlar.

Alı çisinin qonaq üçün seçdiyi bir cüt ad həqiqətən tərifə və mükəmməlliyə malik atlar idi. Sonralar onlara Qırat və Dürat adları verilir. Onlar Koroğlunun sevimli atları idilər, onu müharibələrdə qələbə qazandırardılar. Çeviklikləri, dərrakələri, sürətləri, sədaqətləri ilə.

Həsən xan isə, atları bəyənmədiyindən Alı kişini cəzalandırıb onun gözlərini çıxartdırır. O vaxtdan Ali kişinin oğlu Rövşəni kor kişinin oğlu – Koroğlu çağırırlar.

Liberettoda Alı kişi, Nigar, Koroğlu müsbət obrazlar kimi diqqət mərkəsindədirlər. Hə-

sən xan mənfi obrazdır. Xan bir əyalətin hökmdarıdır. Xalqın, camaatın günü-güzəranı ilə maraqlanmalıdır. Öz əyalətində sülhü, xoşbəxtliyi təmin etməlidir. Həsən xan isə, Bəd əməlləri, 10nikas1010n10i, qəddarlığı ilə seçilir. Öz rəiyyət barədə görün nə fikirləşir:

Qamçıdır saxlayan bu rəiyyəti,
Qamçısız yaşamaz xanın dövləti (1, s. 178)

Onun yanını kəsdirən Həmzə bəy də xanla eyni fikirdədir:

Döyməsən, söyməsən, malın almasan,
Dara çəkdirməsən, dama salmasan
Rəiyyət bir daha xanı dinləməz (1, s. 178).

Nigar gözüaçıq, öz məhəbbətində dönməz, xeyirxah, səmimi, əxlaqi saflığa yiyələnmiş bir xanımdır. Diqqət yetirək:

Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman:
Fağır, günahsız, dilsiz, ağızsız Alını etsin qurban.
Kor etdilər yazıq Alını.
Dağıtdılar bütün malını (1, s. 181).

Bu hadisədən necə təsirləndiyini Nigar aşağıdakı sözlərlə bildirir:

Qəlbim yanır, odlanır,
Mənim bu ahü nalədən (1, s. 181).

Rövşənlə bir-birini sevirlər. Həsən xanın qızı olsa da, Alı kişinin, Rövşənin (Koroğlunun) yanında olur, onların mənafeyini müdafiə edir.

Gözümdə Rövşən, sözümdə Rövşən.
Rövşəndir dünyada məni yaşadan.
Sevmirəm, sevmirəm varı, dövləti,
Ölsəm də də saxlaram məhəbbəti (1, s. 181.

Həsən xan zülmkarlara qarşı mübarizəyə başlayan Koroğlunu aradan götürmək üçün tədbirlər tökür:

Tezliklə biz gərək çarə eyləyək,
Koroğlunu öldürmək, məhv etdirmək!.. (1, s. 191).

Fəqət Həsən xan istəyinə çata bilmir, Koroğlu zəfər qazanır, zülmün, məhrumiyyətin belini qırır. Bu zaman xalqa arxalanır.

Məni yaşatdı, məni böyütdü
Bu qəhrəman xalqım mənim! Yaşa!..
(1, s. 220).

Deyilənlərdən görünür ki, şəxsiyyət, təhsilalanlar mənfi keyfiyyətlərdən uzaq olmalı, müsbət keyfiyyətlərə yiyələnməlidirlər.

**Problemin aktuallığı.** Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ərəfəsində onun müsbət mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı fikirlərinin diqqət mərkəzinə gətirilməsi aktuallıq daşıyır.

**Problemin yeniliyi.** Üzeyir Hacıbəyli yaradıcılığı müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin vasitəsi kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

Ü.Hacıbəyli. Seçilmiş əsərlər. 2 cilddə. 1-ci cild. Bakı: Şərq-Qərb, 2005. 408 s.

**Redaksiyaya daxil olub**: 03.02.2025